www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-07 (1790) 15 aprel 2024-cü il



## Psixi sağlamlıq məsələləri və psixi pozuntulardan əziyyət çəkənlərin hüquqları müzakirə olunub

Rektor, professor Gəray Gəraybəyli: Psixi sağlamlıq anlayışı ilə psixi xəstəliyin bəzən eyni mənada başa düşülməsi mənfi nəticələr doğurur

səh. 2

## Sankt-Peterburq Pediatriya Universitetinin rektoru ATU-da olub

səh. 2

## Təcili tibb kafedrasında innovativ tədris metodları tətbiq olunur

səh. 4

## Autizm – heç bir analizin aşkara çıxara bilmədiyi xəstəlik

səh. 6



## Şəhid ailə üzvləri və qazilər üçün tibbi aksiya keçirilib

Aksiyada universitetimizin həkim və tələbələri fəal iştirak edib

səh. 3

## I Müalicə-profilaktika fakültəsi yubiley konfransı keçirəcək

*Dekan Elşad Novruzov: Fakültədə 2278 tələbə təhsil alır ki, onların 1703-ü yerli, 575-i isə xarici ölkələrin vətəndaşlarıdır*

səh. 4

## Burun qanaxmaları: nədən yaranır, necə dayandıraq?

*Professor Vəfa Pənahian bir çox insanları narahat edən bu məsələyə ətraflı aydınlıq gətirir*

səh. 5



## Müasir gənclik çevik olmalı, öz gələcəyini aydın görməlidir

Millət vəkili Jalə Əhmədovanın tələbələrimizlə görüşü keçirilib

səh. 3

# Psixi sağlamlıq məsələləri və psixi pozuntulardan əziyyət çəkənlərin hüquqları müzakirə olunub

## Rektor, professor Gəray Gəraybəyli: Psixi sağlamlıq anlayışı ilə psixi xəstəliyin bəzən eyni mənada başa düşülməsi mənfi nəticələr doğurur

**Aprelin 1-də Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının təşkilatçılığı ilə "Azərbaycanda psixi sağlamlıq məsələləri və psixi pozuntulardan əziyyət çəkən şəxslərin hüquqları" mövzusuna həsr edilmiş dəyirmi masa keçirilib.**

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva giriş nitqi ilə çıxış edərək bugünkü tədbirin insan hüquq və azadlıqlarının müdafiəsi baxımından əhəmiyyət kəsb edən bir sahəyə - ölkəmizdə fiziki sağlamlığın və psixiatriya müəssisələrində müalicə alan pasiyentlərin hüquqlarının təmini sahəsindəki mövcud problemlərin müzakirəsinə həsr olunduğunu deyib: "Azərbaycan Respublikasının Konstitusiyası ilə təsbit edilən sağlamlığın qorunması hüququnun təmini hər kəsin fiziki və ruhi sağlamlığının mühafizəsinə və tibbi yardımla təminatına imkan verir. Fiziki sağlamlığın qorunması və ixtisaslaşmış tibbi yardımın göstərilməsi də bu hüququn əhatə etdiyi məsələlərdəndir. Milli insan hüquqları təsisatı olaraq tərəfimizdən sağlamlığın qorunması hüququnun təmininə ciddi önəm verilir".

Qurumun səlahiyyətləri daxilində araşdırmalar aparıldığını, aşkar edilmiş problemlərin həlli, eləcə də ölkəmizdə əhalinin müxtəlif qruplarının psixi vəziyyətinin yaxşılaşdırılması istiqamətində tədbirlər görüldüyünü vurğulayan Ombudsman qeyd edib ki, psixi sağlamlıq sahəsində milli strategiyaya da yenidən baxılması məqsədəuyğun olardı: "Azərbaycanda əhalinin müxtəlif qruplarının psixi sağlamlığının yaxşılaşdırılması, bu sahədə məlumatlılıq səviyyəsinin artırılması istiqamətində zəruri tədbirlər görülür, ayrı-seçkilik hallarına qarşı mübarizə gücləndirilir. Ombudsman təsisatı bu sahədə müvafiq dövlət orqanları tərəfindən həyata keçirilən tədbirləri, proqram və layihələri davamlı olaraq izləyir, müvafiq təhlillər aparır. Hesab edirəm ki, toplanmış məlumatlar əsasında Psixi sağlamlıq sahəsində Milli Strategiyaya da yenidən baxılması düzgün olar. Vətən müharibəsi iştirakçılarının postmüharibə dövründə peşəkar və ixtisaslaşmış tibbi, o cümlədən psixiatrik yardımla təmin olunmaları ən vacib məsələlərdən biri kimi qeyd edilməlidir. Ombudsman təsisatı olaraq bu məsələ də diqqətimizdədir".

S.Əliyevanın sözlərinə görə, müşahidə və araşdırmalar göstərir ki, psixiatriya xəstəxanalarında bir qayda olaraq, farmakoterapiya ilə məhdudlaşan müalicə tətbiq edilir. O bildirib ki, xarici ölkələrin müsbət təcrübəsi və müasir yanaşmalar nəzərə alınmaqla izolyasiya təcrübəsindən tədricən imtina edilməsi, icma əsaslı xəstəxanaların, müalicə-istehsal sahələrinin yaradılması, əmək reabilitasiyası təcrübəsinin tətbiqi tərəfimizdən tövsiyə olunur: "Təəssüf ki, bir sıra psixiatriya xəstəxanalarında, xüsusilə regionlarda yerləşən müəssisələrdə maddi-texniki baza və şəraitlə bağlı nöqsanlar mövcuddur. Bu nöqsanların aradan qaldırılması məqsədi ilə tərəfimizdən müvafiq təklif və tövsiyələrlə Səhiyyə Nazirliyinə və digər aidiyyəti qurumlara müraciət edilib".

Psixoloqların bəzi hallarda psixiatr kimi müvafiq müalicə aparmaq cəhdlərinin qəbuledilməz olduğunu söyləyən Səbinə Əliyeva təəssüflə bildirib ki, bu gün ölkəmizdə uyğun təhsili və təcrübəsi olmadan psixoloq kimi fəaliyyət göstərən şəxslərin də sayı az deyil: "Tədbirdə aidiyyəti qurumların nümayəndələrinin iştirakını nəzərə alaraq daha vacib bir məsələyə də toxunmaq istərdim. Son vaxtlar mətbuatda vaxtaşırı intihar halları ilə bağlı məlumatlar dərc olunmaqdadır. İntihar və zorakılıq hallarının yetkinlik yaşına çatmayanlar və gənclər arasında da baş verməsi narahatlıq doğurur. Buna səbəb olan hallar ciddi şəkildə tədqiq edilməlidir. Xüsusilə, təhsil müəssisələrində bu kimi hadisələrə yol açan halların aradan qaldırılması üçün kompleks tədbirlər görülməli, sosial şəbəkələrin, internet şəbəkə oyunlarının və digər internet resurslarının bu kimi hallara təsir imkanları araşdırılmalı, preventiv tədbirlər həyata keçirilməlidir. Məktəbi bitirmiş, lakin imtahanda uğur qazana bilməyən, risk qrupuna daxil olan abituriyentlərin müəyyən edilməsi, regional təhsil idarələri, habelə Gənclər və İdman Nazirliyinin tabeliyində olan gənclər evlərinin psixoloqları tərəfindən həmin abituriyentlərin ailələri ilə koordinasiyalı şəkildə müvafiq işin aparılması da zəruridir. Təklif edərdim ki, müvafiq sahədə fəaliyyətimizin operativliyini təmin etmək məqsədilə qurumlarımızda əlaqələndirici şəxsləri müəyyən edək. Bu, fəaliyyətimizin təkmilləşdirilməsi ilə yanaşı, mövcud problemlərin daha çevik həllinə də imkan verəcəkdir. Əminəm ki, birgə əməkdaşlığımız, eləcə də fəaliyyətimizin koordinasiya olunmuş qaydada düzgün və effektiv təşkili hüquq və azadlıqların müdafiəsinə əlverişli zəmin yaradacaq".



Tədbirdə çıxış edən Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev respublikada psixiatrik xidmətin yaxşılaşdırılması məqsədilə görülən tədbirlərdən danışıb. T.Musayev tibbi xidmətin əlçatanlığının və keyfiyyətinin artırılması istiqamətində məqsədyönlü addımların atıldığını, Psixi sağlamlıq üzrə Milli Strategiyanın hazırlanmasının gələcəyə yönəlik planlardan biri olduğunu söyləyib.

Nazir qeyd edib ki, Azərbaycanda "Psixiatriya" ixtisası üzrə rezidentura təhsilinin müddəti 2 ildən 3 ilə artırılıb, "Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisasların Təsnifatı"na yeni "Uşaq və yeniyetmə psixiatriyası" ixtisası əlavə edilib: "Nazirlikdə "Müharibə əlilləri, yaralıları və şəhid ailələri ilə iş sektoru və "9109" çağrı mərkəzi yaradılıb. Həmçinin tibbi xidmətin əlçatanlığının və keyfiyyətinin artırılması, bu sahədə illərlə formalaşmış stiqmanın aradan götürülməsi məqsədilə artıq bir müddətdir ki, ambulator və stasionar psixiatriya xidməti dövlət tibb müəssisələri ilə yanaşı, özəl tibb müəssisələrində də göstərilir. Həmin müəssisələr həm Bakı şəhərində, həm də regionlarda yerləşir".

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov psixoloji yardım həyata keçirilən özəl müəssisələrdə çalışan şəxslərin əksəriyyətinin bu sahə üzrə təhsili olmadığını bildirib, bu sahəyə ciddi nəzarətin əhəmiyyətini vurğulayıb. Ə.Əmiraslanov, həmçinin ölkəmizdə həkimlərin və pasiyentlərin hüquqlarını qoruyacaq yeni qanun layihəsinin hazırlandığını da diqqətə çatdırıb.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova çıxış edərək, müasir dövrdə uşaqların virtual məkanda daha çox vaxt keçirmələrinin onların psixologiyasına ciddi təsir göstərdiyini qeyd edib. Komitə sədri əhali arasında sağlam həyat tərzinin təbliğinin, eyni zamanda, valideyn məsuliyyətinin artırılması ilə bağlı iş aparılmasının vacibliyini diqqətə çatdırıb.

Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Hande Harmancı psixi xidmətlərə əlçatanlığın təmininin ölkəmiz üçün ən əhəmiyyətli məsələlərdən biri olduğunu, psixi sağlamlıq mövzusunda maarifləndirmə tədbirlərinin həyata keçirilməsinin zəruriliyini vurğulayıb.

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli dövlət tibb müəssisələrində çalışan psixiatrların sayı ilə bağlı mövcud problemlərdən, kadr çatışmazlığından danışıb. Cəmiyyətdə psixi sağlamlıq anlayışı ilə psixi xəstəliyin bəzən eyni mənada başa düşülməsinin mənfi nəticələrinə toxunan professor G.Gəraybəyli xatırladıb ki, psixi sağlamlıq əslində psixi xəstəliyin olması demək deyil: "Burada dəfələrlə səsləndiyi kimi, çox geniş anlayışdır. Yəni sosial, hüquqi, ictimai, iqtisadi, fəlsəfi mahiyyət daşıyır. Məsələn, intihar halları ən çox olan ölkələrdən biri Şotlandiyadır. Orada intihar hallarına həsr olunmuş bir konfransda çox maraqla bir rəqəm açıqlandı ki, intihar hallarının profilaktikasında məsuliyyətin cəmi 10 faizi tibb mütəxəssislərinin üzərinə düşür. Qalan 90 faiz cəmiyyətin digər təbəqələrinə aiddir".

Həmçinin son dövrlər gənclər arasında aqressiya, depressiya hallarının artdığını və bu halların aradan qaldırılması istiqamətində zəruri addımların atılmasının vacibliyini vurğulayan G.Gəraybəyli psixi sağlamlıq haqqında 2001-ci ildə qəbul olunmuş qanunda və onun sonradan işlənən əlavələrində əksini tapan məsələlərin reallıqda tətbiqindən də danışıb. Bildirib ki, bir çox xəstəxanalarda xəstələrin uzun müddət saxlanılması məqbul deyil. Çünki onların hamısının aylarla, illərlə xəstəxanada qalmasına göstəriş yoxdur. Qanunda da qeyd olunub ki, 3 həkimdən ibarət komissiya xəstəni qohumunun istəyindən asılı olmayaraq evə yaza bilər. Ancaq həkimlər bir çox hallarda xəstənin qohumları tərəfindən şantaj edildikləri üçün bunu edə bilmirlər. Qeyri-könüllü stasionarlaşma, sosial problemlərə də diqqət çəkən professorun sözlərinə görə, əksər xəstə yaxınlarının xəstələrə "ağıl zəifliyi" diaqnozunun qoyulmasını istəməsi digər ağır psixi xəstəliklərə əlillik dərəcəsi verilməsində müşahidə olunan çətinliklərlə bağlıdır.

Rektor çıxışının sonunda kliniki psixoloqlar məsələsinə də toxunaraq onların işlə təmin edilməsinin və akkreditasiyasının Səhiyyə Nazirliyi tərəfindən həyata keçirilməsinin vacibliyini diqqətə çatdırıb.

Azərbaycan Psixiatrlar Assosiasiyasının prezidenti Nadir İsmayılov çıxışında əsas diqqəti psixiatriya sahəsində kadr azlığına, psixi xəstələrin cinayət törətməsinə, psixi xəstəliklərin diaqnostikasında obyektiv metodun olmamasına yönəldərək təkliflərini səsləndirib.

Tədbirdə digər çıxış edənlər tibbi xidmətə əlçatanlığın yüksəldilməsi üzrə işlərin görülməsi, həmçinin ölkədə psixi sağlamlığın təmini sahəsindəki mövcud problemlərin həlli istiqamətində təklif və tövsiyələrini bildiriblər.

Dəyirmi masada Ombudsman Aparatının əməkdaşları, vətəndaş cəmiyyəti institutlarının nümayəndələri, psixiatr və ekspertlər, media nümayəndələri iştirak ediblər. Mövzu üzrə müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Sankt-Peterburq Pediatriya Universitetinin rektoru ATU-da olub

## Səhiyyə sahəsində əməkdaşlığın perspektivlərinə dair müzakirələr aparılıb



**Sankt-Peterburqun mədəniyyət-işgüzar missiyası Azərbaycanın paytaxtına səfər edib. Səfər çərçivəsində Sankt-Peterburq Dövlət Pediatriya Universitetinin nümayəndə heyəti Azərbaycan Tibb Universitetində olub, rektor, professor Gəray Gəraybəyli ilə görüş keçirib.**

Görüşdə rektor G.Gəraybəyli ölkəmizin qocaman ali təhsil mərkəzlərindən biri olan və zəngin ənənələri ilə tanınan Azərbaycan Tibb Universitetinin fəaliyyəti, tədris proqramındakı yeniliklər barədə qonaqlara ətraflı məlumat verib. Xarici tələbələrin sayına görə ATU-nun ölkədə birinci olduğunu bildirən rektor, beynəlxalq əlaqələrimizin genişləndirilməsi istiqamətində son illər atılan addımlar barəsində də danışıb. Nümayəndə heyəti üzvlərinə, həmçinin ATU-nun nəzdindəki klinikaların fəaliyyəti haqqında məlumat verilib. G.Gəraybəyli qarşılıqlı görüş və müzakirələrin ATU ilə Sankt-Peterburqdakı tibb universitetləri arasında münasibətlərin inkişafına təkan verəcəyinə inandığını bildirib.

Sankt-Peterburq Dövlət Pediatriya Universitetinin rektoru, professor Dmitri İvanov Sankt-Peterburqdakı tibb mərkəzləri və müəssisələrinin fəaliyyətindən söhbət açıb. O bu qurumlarla Azərbaycandakı elmi tibb mərkəzləri və ATU-nun əməkdaşlığının gücləndirilməsi, əlaqələrin intensivləşdirilməsi və daha üst səviyyəyə qaldırılmasında maraqlı olduqlarını bildirib.

Sonra tərəflər arasında qarşılıqlı əməkdaşlıq perspektivlərinə dair müzakirələr aparılıb.

**Aprelin 3-də Azərbaycan Tibb Universitetində millət vəkili Jalə Əhmədovanın tələbələrlə görüşü keçirilib. Görüşdə tələbələrlə yanaşı, professor-müəllim heyəti də iştirak edib.**

# Müasir gənclik çevik olmalı, öz gələcəyini aydın görməlidir

## Millət vəkili Jalə Əhmədovanın tələbələrimizlə görüşü keçirilib

Tədbir Ulu Öndər Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət Himnimizin səsləndirilməsi ilə açılıb. ATU-nun Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev millət vəkili Jalə Əhmədovanı tədbir iştirakçılarına təqdim edərək, qonağın Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının, Müstəqil Dövlətlər Birliyinin üzvü olan dövlətlərin Parlamentlərarası Assambleyası Şurasının üzvü və Azərbaycan-Estoniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri olduğunu diqqətə çatdırıb. Onun, həmçinin bir sıra ictimai vəzifələr daşıdığını, bir sıra ictimai təşkilatların üzvü və rəhbəri olduğunu qeyd edib. Prorektor onlardan tibb sahəsi ilə bağlı olanları vurğulayıb və bildirib ki, millət vəkili, eyni zamanda Azərbaycan Qan Donorluğunun İnkişafı Mərkəzinin idarə heyətinin fəxri üzvü, Azərbaycan Autizm Assosiasiyasının prezidenti, Türk Dövlətləri Autizm Federasiyasının baş katibidir.

ATU-da tədris fəaliyyəti, tələbələrin universitetin ictimai həyatındakı rolu ilə bağlı video-rolik nümayiş etdirildikdən sonra millət vəkilinə söz verilib. J.Əhmədova çıxışında Azərbaycan gəncliyinin üzərinə düşən məsuliyyət və vəzifələrdən, dövlətimizin gənclərlə bağlı apardığı ardıcıl və məqsədyönlü siyasətdən, onlara yaradılan şəraitdən söhbət açıb: "Sizlərlə bu görüşümüzə şərait yaratdığı üçün başda universitetin rektoru, professor Gəray Gəraybəyli olmaqla rəhbər heyətə, görüşün təşəbbüskarı, Bioloji kimya kafedrasının baş müəllimi Firəngiz Quliyevaya təşəkkürümü bildirirəm. Bilirsiniz ki, mən qanunverici orqanda təmsil olunuram. Dövlətimizin gənclərə olan münasibəti, onlar üçün yaradılan şərait, cənab prezidentimizin Azərbaycan gənclərinə göstərdiyi etimad və verdiyi yüksək qiymət hər birinizə yaxşı məlumdur. İlk dəfə Gənclər Günü Ulu Öndərin təşəbbüsü ilə təsis olunub. Məhz onun dövründə Gənclər və İdman Nazirliyi təşkil olunub və gənclərimizin xaricdə təhsil alması üçün geniş imkanlar yaradılıb.

Bizim tələbəlik dövrümüzdən fərqli olaraq, müasir gənclik rahat şəraitdə təhsil alır. Bizim sizin qədər informasiya əldə etmək imkanlarımız yox idi. Siz daha şanslı gənclərsiniz. Çünki sizin üçün oxuduğunuz ali məktəblərdə daha gözəl şərait yaradılıb. Həm də müasir müəllimlər gənclərə münasibətdə olduqca açıqdırlar, hər bir sahədə tələbələrə həvəslə yardımçı olmağa çalışırlar".

Millət vəkili təəssüflə bildirib ki, indiki gənclərin böyük əksəriyyətində ideoloji boşluq müşahidə edir: "Müxtəlif görüşlərdə gələcəklərini necə görmələri ilə bağlı verdiyim sualın cavabında gənclərimizin susqunluq nümayiş etdirməsi məni heç də qane etmir. Müasir gənclik çevik olmalı, gələcəyini necə qurmağı aydın şəkildə müəyyənləşdirməli və planlı şəkildə düşünməlidir. Necə ki, cənab prezidentimiz deyir ki, Azərbaycan xalqı özü öz gələcəyini düşünməlidir. Öz gələcəyini necə görürsə, bu istiqamətdə özü hərəkət etməlidir. Baxın, bu məsələdə əsas yük məhz siz gənclərin üzərinə düşür".



Daha sonra natiq autizm xəstəliyinin cəmiyyətimizdə yaratdığı problemlərdən söhbət açıb. Belə körpələrin dünyaya gətirilməsinin qarşısını almaq məqsədilə gənclərə öz tövsiyələrini də verib: "Təəssüf ki, son dövrlər ailələrimizdə əlilliyi olan körpələrin sayı artır. Təbii ki, biz bunun səbəbinin nədən qaynaqlandığını analiz etməli və düşünməliyik. Burada subay gənclərimizə bir tövsiyəm var. İlk öncə erkən nikahlardan, qohum evliliklərindən çəkinmək lazımdır. Çünki bu cür fəsadlar ən çox qohum evliliyi zamanı baş verir. Eləcə də ailə qurmamışdan öncə müayinədən keçin ki, sonradan peşmançılıq yaşamayasınız. Mən vaxtaşırı bu cür gənc ailələrlə görüşürəm. Onların bu həyatda nə qədər nakam qaldıqlarının şahidi oluram. Bir-birinizi nə qədər sevsəniz də, sabah belə övladlar dünyaya gələndə gözlərinizdə o sevgi, coşqu yox olur. Çünki əlilliyi olan övlad dünyaya gətirmək həmin andan həyatını, ömrünü, xoşbəxtliyini ona bağlamaq deməkdir. Çox təəssüf ki, bu cür hallarda 99 faiz xanımlarımız tək qalır, öz ağrı-acılarını təkbaşına çəkməli olurlar. Ona görə də yolunuzu düzgün seçin və ağıllı qərarlar verin".

Çıxışından sonra millət vəkili tələbələrin çoxsaylı suallarını ətraflı şəkildə cavablandırıb.

Görüşün təşəbbüskarı olan Firəngiz Quliyeva isə öz çıxışında Jalə Əhmədovanın ölkəmizdə uğurla həyata keçirilən gənclər siyasətini dəstəkləyən və təbliğatını geniş şəkildə aparan millət vəkillərindən biri olduğunu qeyd edib. Müasir Azərbaycan gənclərinin Vətən sevgisi ilə, vətənpərvərlik ruhunda böyüməsinə toxunan natiq, tələbələrlə təşkil olunan bu görüşün əhəmiyyətini vurğulayıb. F.Quliyeva bu günlərdə "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı ilə təltif olunmaları münasibətilə professor Sabir Əliyevi və millət vəkili Jalə Əhmədovanı təbrik edib.

**Qabil ABDULLAYEV**

# Professor Dmitri İvanov müəllim və tələbələrimiz qarşısında çıxış edib



Sankt-Peterburqun mədəniyyət-işgüzar missiyasının Bakıya səfəri çərçivəsində Rusiya Səhiyyə Nazirliyinin baş neonatoloqu, Sankt-Peterburq Dövlət Pediatriya Universitetinin rektoru, professor Dmitri İvanov ATU-nun Tədris-Cərrahiyyə Klinikasında müəllim və tələbələrlə görüş keçirib.

Rusiya nümayəndə heyətini toplantı iştirakçılarına təqdim edən ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov bildirib ki, bu görüş Sankt-Peterburqla Azərbaycan hökumətlərarası komissiyasının iclasının proqramı əsasında təşkil olunub və ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq çərçivəsində işgüzar xarakter daşıyır.

Daha sonra professor D.İvanov öz həyatı və elmi-pedaqoji fəaliyyəti barədə ətraflı məlumat verib, Sankt-Peterburq Dövlət Pediatriya Universitetinin yaranma tarixi, keçdiyi inkişaf yolu və maddi-texniki bazası haqda danışıb. Qeyd edib ki, bu universitet 1925-ci ildə yaradılıb və Rusiyanın qocaman tibb universitetlərindən biri hesab olunur: "İlk əvvəllər bu məktəb uşaq və anaların qorunması institutu adlanıb və sonradan Sankt-Peterburq şəhərində öz strukturunda poliklinikaya malik olan yeganə ali tibb məktəbinə çevrilib. Universitetimiz üçün ən çətin dövr II Dünya müharibəsi illəri olub. O zaman ölkənin üzləşdiyi ağır müharibə vəziyyətinə baxmayaraq, bu təhsil müəssisəsi öz fəaliyyətini dayandırmayıb və həkimlər yetişdirməkdə davam edib. Müharibə zamanı tədrislə yanaşı, burada həm də insanlar müalicə edildiyi üçün xəstəxana da açılıb. Əməkdaşlar ac uşaqlara, köməksiz qocalara, yaralı və xəstə əsgərlərə lazımi tibbi yardım göstəriblər.

1994-cü ildə Uşaq Tibb İnstitutu adlandırılan ali təhsil müəssisəsinin statusu sonradan dəyişdirilib. 2013-ci ildə təhsillərini başa vuran məzunlar Sankt-Peterburq Dövlət Pediatriya Universitetinin diplomunu alıb".

Rektor onu da vurğulayıb ki, təmsil etdiyi universitet hazırda Rusiyanın ən güclü ali məktəblərindən biridir.

# Şəhid ailə üzvləri və qazilər üçün tibbi aksiya keçirilib

**Azərbaycan Könüllü Həkimlər Assosiasiyasının (AKHA) təşkilatçılığı ilə Sumqayıt şəhərində Xüsusi Təyinatlı Qüvvələrin şəhid ailə üzvləri və qazilər üçün tibbi aksiya keçirilib.**

Aksiya çərçivəsində Bakı, Sumqayıt, Quba, Xaçmaz, Şabran və digər rayonlarda yaşayan həssas kateqoriyanın nümayəndələri müayinə olunublar. Onların müayinəsində müxtəlif dövlət və özəl tibb müəssisələrində çalışan 20 ixtisas üzrə 34 könüllü həkim - kardioloq, radioloq, terapevt, pediatr, dermatoloq, nevroloq, endokrinoloq, cərrah, stomatoloq, reabilitoloq, fizioterapevt, ginekoloq, psixoloq və digərləri iştirak edib. Aksiya 150-ə yaxın şəxsi əhatə edib. Xəstəlik aşkar edilən vətəndaşlara müvafiq müalicə kursları təyin olunub, yerində məslələhətlər verilib. Həmçinin sağlamlıq vəziyyəti ağır olan şəxslərə ixtisaslaşmış tibb müəssisələrində müayinədən keçmək tövsiyə edilib və ehtiyac yaranarsa cərrahi əməliyyatların aparılmasına dəstək veriləcəyi diqqətə çatdırılıb.

Aksiyada ATU-nun həkimləri və tələbələri də fəal iştirak edib. Onlardan AKHA-nın sədri, Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının assistenti Oktay Mehtiyev, II Müalicə-profilaktika fakültəsinin dekan müavini Arzu Bəydəmirova, II Uşaq xəstəlikləri kafedrasının dosenti Fəxriyyə Məmmədova, Ümumi cərrahlıq kafedrasının dosenti Elman Tağıyev, II Daxili xəstəliklər kafedrasının assistenti Gülarə Axunbəyli, tələbələrimizdən isə Çiçək Məmmədli, Zivər Hüseynova, Aqil Nəzərov, Aytac Muradlı, Günay Musayeva, Məhəmmədəli Əliyev, Rəfiqə Süleymanova, Vüsal Mustafayev, Əliəşrəf Mirzəyev, Zöhrə İsmayılova, Müjgan Allahverdiyeva, Yusuf Xəlil, Sərfinaz Hüseynzadə, Rəziyyə Baxşılı, Tehranə Cəfərova, Mədinə İbrahimova, Ruslan Hüseynov, Fidan Quliyeva, Samirə Qurbanlı, Fatimə Qurbanlı, Səma Məmmədzadə, Leyla Əhmədova, Sevda Rəsulova, Aydan Ələsgərova, Əli Əkbərov, Elçin Verdiyev, Ülvi İsmayılovun adlarını çəkmək olar.



# 9109 "Çağrı mərkəzi" vasitəsilə 57 minə yaxın müraciət cavablandırılıb

**Səhiyyə Nazirliyinin müharibə iştirakçıları və şəhid ailələrinə psixoloji yardım və tibbi reabilitasiya üzrə 9109 qısa nömrəli "Çağrı mərkəzi" 1 aprel 2023-cü il tarixindən fəaliyyət göstərir.**

"Çağrı mərkəzi" müharibə veteranlarına göstərilən psixoloji və tibbi reabilitasiya xidmətlərinə vahid platformadan nəzarətin təşkil edilməsi, müharibə veteranları və şəhid ailələri ilə proaktiv işin aparılması, tibbi reabilitasiya xidmətlərinin sistemli yanaşma və davamlı şəkildə təmin edilməsi, səhvi fəaliyyətlərin digər dövlət qurumları ilə koordinasiyasının aparılması məqsədilə yaradılıb.

"Çağrı mərkəzi"nə daxil olan müraciətlərin operativ şəkildə həlli məqsədilə aidiyyəti dövlət qurumları ilə inteqrasiya olunmuş "Müharibə veteranları və şəhid ailələrinə psixoloji yardım və tibbi reabilitasiya üzrə Vahid Nəzarət Platforması" formalaşdırılıb. Fəaliyyət göstərdiyi ötən bir il ərzində "Çağrı mərkəzi" vasitəsilə 56 358 müraciət cavablandırılıb. Bunlardan 12 062 müraciət əsaslı, 44 296 isə proaktiv zənglər olub.

Ötən müddət ərzində Səhiyyə Nazirliyinin ixtisaslaşmış qurumlarına psixoloji yardımla bağlı 1940 müraciət yönləndirilib. Eyni zamanda, psixiatrik müayinə və müalicə ilə bağlı 1930 müraciət daxil olub. Daxil olan müraciətlərdən Səhiyyə Nazirliyinin tabeliyindəki reabilitasiya mərkəzlərinə ümumilikdə 975 müraciət istiqamətləndirilib. Belə ki, nazirliyin nəzdində olan Sanator Kurort Reabilitasiya Mərkəzinə 613, Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutuna 338 və 24 şəhid övladı müalicə almaq üçün Respublika Uşaq Sanatoriyasına yönləndirilib.

Qeyd edək ki, 9109 "Çağrı mərkəzi"nə müraciətlər həftənin bütün günləri, günün istənilən vaxtında qəbul olunur.

# Ümumdünya Sağlamlıq Günü: sağlamlıq hər kəsin haqqıdır



**1948-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı yaradılıb. ÜST-ün təsis olunduğu 7 aprel tarixi 1950-ci ildən etibarən hər il Ümumdünya Sağlamlıq Günü kimi qeyd olunur.**

Bu əlamətdar gündə bütün dünyada müxtəlif tədbirlər keçirilir, sağlamlıq sahəsində araşdırmalar təşviq edilir. Hər il bu münasibətlə bir şüar seçilir. Bu da həmin mövzulara diqqət çəkmək fürsəti kimi dəyərləndirilir. Məqsəd isə insanların hər yerdə sağlamlıq və rifahın ən yüksək səviyyəsinə çatmasına nail olmaqdır.

ÜST bildirir ki, müalicəyə və ümumiyyətlə, səhiyyə xidmətlərindən istifadəyə, riskli davranışlardan çəkinməyə, sağlamlığın qorunması və təşviqinə daim diqqət yetirilməlidir. Xüsusilə, gənclərin fiziki, mənəvi və sosial baxımdan balanslı həyat yaşaya bilməsi önəm daşıyır. Cəmiyyətin ən kiçik struktur blokları olan fərdlərin sağlamlığı bütövlükdə cəmiyyətin sağlam olmasını təmin edir. Bu kontekstdə müalicə müəssisələrinin, profilaktik səhiyyə müəssisələrinin işi böyük əhəmiyyət kəsb edir.

Amma bütün bunlara baxmayaraq, dünyada milyonlarla insanın sağlamlıq hüququ getdikcə daha çox təhlükə altına düşür. Xəstəliklər və fəlakətlər ölüm və əlilliyin ciddi səbəblərinə çevrilir. Münaqişələr insanların həyatını məhv edir, ölüm, ağrı, aclıq və psixoloji iztirablara səbəb olur. Eləcə də havanın çirklənməsi iqlim böhranına gətirib çıxarır. Dünya üzrə qapalı və açıq şəraitdə havanın çirklənməsi hər 5 saniyədə bir can alır. ÜST-ün hamı üçün Sağlamlığın İqtisadiyyatı Şurası müəyyən edib ki, ən azı 140 ölkə öz konstitusiyalarında sağlamlığı insan hüququ kimi tanıyır. Bununla belə, bir sıra ölkələr öz əhalisinin səhiyyə xidmətlərindən istifadə hüququnu həyata keçirmək üçün qanunlar qəbul etmir və ya onları tətbiq etmir. Bu, 2021-ci ildə ən azı 4,5 milyard insanın - dünya əhalisinin yarıdan çoxunun əsas səhiyyə xidmətləri ilə tam əhatə olunmadığını təsdiqləyir. Diqqəti bu kimi problemlərə yönəltmək üçün bu il Ümumdünya Sağlamlıq Gününün şüarı belədir: "Sağlamlığım mənim haqqımdır".

Bu şüar hər bir insanın hər yerdə keyfiyyətli səhiyyə xidmətləri, təhsil və məlumat, o cümlədən təhlükəsiz içməli su, təmiz hava, düzgün qidalanma, keyfiyyətli yaşayış məskəni, layiqli əmək və ətraf mühit şəraiti və ayrı-seçkilikdən azad olmaq hüququnu müdafiə və təbliğ etmək üçün seçilib.

Ölkəmizdə "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu mövcuddur. Əhalinin sağlamlığının qorunması hər bir insanın fiziki və ruhi sağlamlığının mühafizəsinə, onun fəal uzun ömürlülüyünün artırılmasına, tibbi yardımla təminatına yönəldilmiş siyasi, iqtisadi, hüquqi, elmi, tibbi, sanitar-gigiyena xarakterli tədbirlərin məcmusundan ibarətdir. Bu Qanun əhalinin sağlamlığının qorunması sahəsində vətəndaşlarla dövlət orqanları, eləcə də dövlət və qeyri-dövlət səhiyyə sistemlərinin subyektləri arasında yaranan münasibətləri tənzimləyir.

**Mədinə Hacıyeva**
*Tibb və sağlamlıq elmləri təhsili kafedrasının assistenti, t.ü.f.d.*

# I Müalicə-profilaktika fakültəsi yubiley konfransı keçirəcək

## Dekan Elşad Novruzov: Fakültədə 2278 tələbə təhsil alır ki, onların 1703-ü yerli, 575-i isə xarici ölkələrin vətəndaşlarıdır

**Azərbaycan Tibb Universitetinin I Müalicə-profilaktika fakültəsinin yaradılmasından 50 il ötür. Bu münasibətlə dekan, dosent Elşad Novruzovla fakültənin tarixi, bu günü və yubileylə bağlı planlar haqda söhbət etdik.**

Elşad müəllimin dediyinə görə, 1974-cü il mayın 5-də ATU-nun Müalicə-profilaktika fakültəsinin əsasında iki eynihüquqlu (I MPF və II MPF) fakültə yaradılıb: "2019-cu ildən fakültəyə mən rəhbərlik edirəm. Vəzifəsi tibbin müxtəlif sahələri üzrə mütəxəssislər hazırlamaq olan fakültədə hal-hazırda 373 nəfər professor-müəllim heyəti çalışır. Əməkdaşlarımızdan 1 nəfər AMEA-nın həqiqi üzvü, 1 nəfər AMEA-nın müxbir üzvü, 1 nəfər Rusiya Elmlər Akademiyasının xarici üzvü, 1 nəfər Rusiya Elmlər Akademiyasının akademiki, 65 nəfər tibb elmləri doktoru, 252 nəfər tibb elmləri üzrə fəlsəfə doktoru, o cümlədən 56 nəfər professor, 133 nəfər dosent, 22 nəfər baş müəllim (onlardan 20 nəfəri elmi dərəcəli) və 162 nəfər assistentdir (onlardan 113 nəfəri elmi dərəcəli). Ümumiyyətlə, müəllim heyətinin 317 nəfəri elmi dərəcəlidir. Təlim-tərbiyə prosesinin uğurla həyata keçirilməsi işində professor-müəllim heyətinə 143 nəfər yardımçı heyət kömək edir. Son 10 ildə fakültə əməkdaşları tərəfindən 6697 elmi iş dərc edilib və bu illər ərzində kafedralar üzrə yerli və xarici olmaqla 8 Patent və 19 Qrant alınıb".

E.Novruzov bildirir ki, 2024-cü ilin əvvəllərinə olan məlumata görə, fakültədə 2278 tələbə təhsil alır. Onlardan 1703 nəfəri yerli tələbələr, 575 nəfəri isə xarici ölkələrin vətəndaşlarıdır (Türkiyə, İran, İraq, Rusiya, Gürcüstan, ABŞ, İngiltərə, Əfqanıstan, Pakistan, Hindistan və s.). 2278 tələbədən 1774-ü Azərbaycan, 376-sı ingilis, 128-i isə rus bölməsində təhsil alır.



Fakültənin gündəlik fəaliyyətindən bəhs edən dekanın sözlərinə görə, yüksək ixtisaslı mütəxəssislər yetişdirmək üçün rəhbərliyin nəzarəti altında tədris, metodik, tədqiqat, innovativ və təlim-tərbiyə işləri əlaqəli şəkildə həyata keçirilir: "I MPF-də 6 illik ali baza əsasında tibb təhsilini bitirdikdən sonra tələbələr "Həkim" ali peşə dərəcəsinə yiyələnirlər. Bundan sonra isə dar sahədə ixtisaslaşmaq istəyənlər müvafiq ixtisasa uyğun olaraq 2-5 illik rezidentura səviyyəsi üzrə təhsil alırlar.

Tələbələrimiz universitetin mədəni-ictimai və idman həyatında, eləcə də Tələbə Elmi Cəmiyyətinin işində fəallıq göstərir, beynəlxalq elmi konfranslarda çıxışlar edir, diplomlara layiq görülürlər. Son 10 ildə fakültə üzrə TEC-də iştirak edən tələbələrin sayı 544 nəfər olub. Onlardan 90 nəfəri I, 122 nəfəri II, 85 nəfəri isə III yerlərə layiq görülüb".

Sözünə davam edən E.Novruzov fakültənin əldə etdiyi nailiyyətlərə da diqqət çəkib: "Bildiyiniz kimi, 2022-ci ildə ATU ölkədə fəaliyyət göstərən ali təhsil müəssisələri arasında ilk və yeganə universitet olaraq, üç ixtisas üzrə beynəlxalq akkreditasiyadan uğurla keçib. Bu ixtisaslardan biri də "Müalicə işi" ixtisasıdır. 18 kafedranı özündə birləşdirən I MPF-in nəzəri kafedraları onlara məxsus tədris binalarında, bundan başqa, Onkologiya kafedrası ATU-nun Onkoloji klinikasında, terapiya yönümlü kafedralar Tədris Terapevtik Klinikada, cərrahi yönümlü kafedralar isə Tədris Cərrahiyyə Klinikasında fəaliyyət göstərirlər. Tələbələrin gələcəkdə arzuladığı və yiyələnmək istədiyi ixtisası daha yaxından tanıması məqsədilə fakültə tərəfindən bir çox layihələr həyata keçirilir ki, onlardan biri də "Rezident həyatı yaşa" layihəsidir. Bu layihədə 8 bazadan istifadə olunaraq, 180 tələbəmiz iştirak edib".

Fakültənin yubileyi ilə bağlı sualımıza cavab olaraq dekan məlumat verir ki, mayın 1-də bu münasibətlə geniş konfrans keçiriləcək. Tədbirdə müasir təbabətin müxtəlif sahələrinə - kardiologiya, nevrologiya, dermatologiya, pediatriya, transplantologiya, ümumi cərrahiyyə, urologiya, onkoginekologiyaya aid mövzularda məruzələr edilməsi və tanınmış həkim-ekspertlər tərəfindən müzakirələrin aparılması nəzərdə tutulub.

E.Novruzov əmindir ki, nəzərdə tutulan elmi konfransda universitetimizin professor-müəllim heyəti və tələbələrimiz aktiv iştirak edəcək və maraqlı məruzələr dinləniləcək: "Fürsətdən istifadə edərək, yubileyimiz münasibətilə doğma kollektivi ürəkdən təbrik edir, əməkdaşlarımızın hər birinə işlərində müvəffəqiyyətlər diləyirəm".

# Təcili tibb kafedrasında innovativ tədris metodları tətbiq olunur

**ATU-nun gənc kafedralarından olan Təcili tibb kafedrasında ənənəvi üsullar ilə yanaşı, innovativ tədris metodları, nəzəri dərslərdə böyüklər üçün nəzərdə tutulan müxtəlif oyunlar tətbiq edilir.**



Praktik bacarıq dərsləri müxtəlif maket-mulyajların tətbiqi sayəsində daha öyrədici və yaddaqalan olur. Nəzəri dərslərin darıxdırıcı olmaması və daha yaxşı mənimsənilməsi üçün Riziko və Kahoot oyunları istifadə edilir.

Kafedrada VR-ın (virtual reality) tətbiqi tələbələrin kritik situasiyalara aid biliklərini, bacarıqlarını, ən əsası isə, davranışlarını inkişaf etdirməyə və qiymətləndirməyə xidmət edir. VR simulyasiya dərsləri ilə tələbələr müxtəlif ssenarilər üzrə (multitravma, pediatrik sinkop, septik şok, döş qəfəsi ağrısı və s.) baş verə biləcək ölümün qarşısını alır, xəstəni stabilləşdirir və xəstə menecmentini həyata keçirirlər.

Qeyd edək ki, tətbiq olunan ssenarilərin lisenziyasını (SimX firması, ABŞ) kafedranın müəllimləri 9-cu Avrasiya Təcili Tibb Konqresi - SimX Workshop at EACEM-2023 konfransında keçirilən müsabiqədə mükafat olaraq əldə ediblər və o, hazırda tədris prosesində uğurla istifadə olunur.

Kafedrada həm dərs proqramının mövzuları, həm də dərslərin fərqli üsullarda təşkili tələbələr tərəfindən maraqla qarşılanır. Bu da onların dərslərdə yüksək motivasiya ilə iştirakına, əylənərək öyrənməsinə, qazandıqları bilik və bacarıqların daha yaddaqalan olmasına əsas verir.

# Əməkdaşlarımızın yeni ixtirası beynəlxalq patent alıb

**Azərbaycan alimlərinin hipotireozun müalicəsi üçün hazırladıqları yeni dərman formulu beynəlxalq səviyyədə patent alıb. Azərbaycan Tibb Universitetinin I Cərrahi xəstəliklər kafedrasının assistenti Azər Hümmətovun həmmüəllifi olduğu elmi tədqiqat işi beynəlxalq Avrasiya patentini qazanıb.**

Doktor A.Hümmətovun sözlərinə görə, tədqiqat işi bir neçə alimin əməkdaşlığı ilə aparılıb: "Uzunmüddətli fəaliyyət göstərən levotiroksin natrium penhidrat üçün xitozan/arabinoqalaktan əsaslı kompozisiya" adlı elmi tədqiqat nəticəsində yeni qarışıq yaradılıb. Hazırda tədqiqat işi eksperimental mərhələdədir. Araşdırmaların klinik mərhələsi başa çatdıqdan sonra nəticələri açıqlanacaq. Azərbaycan həkimlərinin bu ixtirası sayəsində hipotireozu olan pasiyentlər artıq "Levotiroxin"i hər gün deyil, 2-3 gündən bir qəbul edə biləcəklər".



ЕВРАЗИЙСКАЯ ПАТЕНТНАЯ ОРГАНИЗАЦИЯ
ЕВРАЗИЙСКОЕ ПАТЕНТНОЕ ВЕДОМСТВО

ЕВРАЗИЙСКИЙ ПАТЕНТ
НА ИЗОБРЕТЕНИЕ
№ 046579

Название изобретения:
«СОСТАВ НА ОСНОВЕ ХИТОЗАНА/АРАБИНОГАЛАКТАНА ДЛЯ ДЛИТЕЛЬНОГО ДЕЙСТВИЯ ПЕНТАГИДРАТА ЛЕВОТИРОКСИНА НАТРИЯ»

Патентовладельцы:
ГУММАТОВ АЗЕР ФАРАХИМ ОГЛЫ (AZ)

Изобретатели:
Гумматов Азер Фарахим оглы, Зейналов Низами Аллахверди оглы, Тагиев Дильгам Бабир оглы, Ширинова Сафарова Хатира Новрузали кызы, Таидыгов Шамо Зохраб оглы, Сафаралиева Самира Фаиг кызы, Балаева Эмилья Закир гызы (AZ)

Заявка №: 202200102
Дата подачи заявки: 22 февраля 2022 г.
Дата выдачи патента: 27 марта 2024 г.

Настоящим удостоверяется, что евразийский патент выдан на изобретение с формулой, опубликованной в Бюллетене Евразийского патентного ведомства «Изобретения (евразийские заявки и патенты)» № 3 / 2024 год.

При уплате установленных годовых пошлин патент действует на территории государств-участников Евразийской патентной конвенции – Азербайджанской Республики, Кыргызской Республики, Республики Армения, Республики Беларусь, Республики Казахстан, Республики Таджикистан, Российской Федерации, Туркменистана.

ДОКУМЕНТ ПОДПИСАН ЭЛЕКТРОННОЙ ПОДПИСЬЮ
Сертификат: 1650024017000
Владелец: Ивлиев Григорий Петрович
Действителен: с 15.04.2022 по 14.04.2027

ИВЛИЕВ Григорий Петрович
Президент Евразийского патентного ведомства

Qeyd edək ki, tədqiqat işində adıçəkilən kafedra ilə yanaşı, ATU-nun Elmi Tədqiqat Mərkəzi, Əczaçılıq kimyası kafedrası, eləcə də AMEA-nın Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun əməkdaşları iştirak ediblər.

# Burun qanaxmaları: nədən yaranır, necə dayandıraq?

## Professor Vəfa Pənahian bir çox insanları narahat edən bu məsələyə ətraflı aydınlıq gətirir

**"İnsan orqanizmində bir sıra xəstəliklər və ya dəyişikliklər nəticəsində burun qanaxmaları baş verə bilər". Bunu "Təbib"in əməkdaşına burun qanaxmalarının səbəblərindən danışan ATU-nun Qulaq, burun və boğaz xəstəlikləri kafedrasının müdiri, professor Vəfa Pənahian söyləyib.**

O, burun qanaxmalarının bir neçə səbəbi olduğunu bildirib: "Hipertoniya xəstəliyində arterial təzyiqin yüksəlməsi kapilyarların tamlığının pozulması və qanaxması ilə nəticələnə bilər. Hipertonik krizlər zamanı burun qanaxmalarının müsbət cəhəti ondan ibarətdir ki, arterial təzyiq bir qədər azalır və hətta bəzi hallarda hemorragik insultun qarşısı alına bilər. Hematoloji xəstəliklərdə qanın laxtalanma sistemində patoloji dəyişikliklər əmələ gəlir və burun qanaxmaları müşahidə olunur. Oxşar problemə şəkərli diabetdə da rast gəlmək olar. Məlumdur ki, şəkərli diabetdə regenerasiya prosesləri gecikir və qanaxma ehtimalı yüksəlir. Böyrək çatmazlığında burun qanaxmaları uremiya və ya hemodializlə əlaqədardır. Hamiləlikdə hipovitaminoz əmələ gəlir və damarların divarlarının elastikliyi pozulur, burun qanaxmalarına səbəb olur. Bundan başqa, burun travmaları və cərrahi əməliyyatlar səbəbindən qan damarları zədələnər və qanaxma yarada bilər. Eləcə də burun qanaxmaları burunun anatomik quruluşun pozulmaları zamanı izlənilir. Belə ki, burun çəpərinin əyriliyi, balıqqulaqlarının böyüməsi, poliplər və sair burun tənəffüsünə mane olan amillər hava durğunluğu yaradır və nəticədə, selikli qişada şişkinlik əmələ gəlir. Bu vəziyyət burun qanaxmaları üçün ən əlverişli şəraitdir".

Vəfa müəllimin sözlərinə görə, burun qanaxmalarının bir səbəbi də yaşla əlaqədardır: "Belə hallara adətən uşaqlarda və yaşlılarda rast gəlinir ki, bu da qan damarlarının divarında gedən dəyişikliklərə bağlıdır. Məlumdur ki, insanın yeniyetmə və yaxud uşaqlıq dövründə damar divarları həddən artıq yumşaq olur. Eyni zamanda, bədənin hər yerində olduğu kimi, burunda da böyümə prosesi gedir. Bu zaman dartılma nəticəsində damarların partlaması müşahidə olunur və nəticədə qanaxma baş verir. Yaşlı insanlarda isə əksinə, qan damarlarının həddən artıq bərkiməsi, yəni elastikliyin azalması səbəbindən yaranan dəyişiklik (arterial təzyiqin artması, fiziki gərginlik və s.) şiddətli qanaxmalara yol aça bilər".



Burun qanaxmalarının bir səbəbi isə orqanizmimizlə birbaşa bağlı deyil. Professor bildirib ki, bu, havaların və atmosfer təzyiqinin dəyişilməsidir: "Adətən bu hallar yaz və payız aylarında müşahidə olunur. Hazırda biz yaz fəslini yaşayırıq və bu dəyişiklik nəticəsində burun qanaxmalarına rast gəlinir. Yaz fəslində havaların, nisbi rütubətin və atmosfer təzyiqin dəyişməsi həssas adamlara mənfi təsir edir. Yuxarı tənəffüs yolları, xüsusən burun boşluğunun selikli qişası hava dəyişikliyinə həssas olur. Kisselbax kələfinin kapillyarları anatomik olaraq selikli qişanın altında səthi yerləşdiyinə görə dərhal reaksiya verir. Havaların dəyişkənliyi burunun selikli qişasında qalınlaşmaya, ya da nazikləşməyə səbəb olur. Hətta mukozadan selik ifrazatının axmasına və ya əksinə, qurumasına təkan verir. Məlumdur ki, yaz ayları allergik mövsümdür və allergik rinitin mövsümi forması məhz yaz və payız aylarında özünü büruzə verir. Selikli qişada həddən artıq yaranan şişkinlik və seliyin axması burun tənəffüsündə çətinliklər yaradır və nəticədə bir sıra xəstələrdə burun qanaxmalarına səbəb olur".

Burun qanaxmasında müalicə tədbirlərindən də bəhs edən həkim vurğulayıb ki, ilk öncə qanaxmanı dayandırmaq və səbəbini araşdırılmaq lazımdır: "Xəstə burun qanaxmasıyla müraciət edən zaman qanaxmanın saxlanılmasıyla bərabər, onun səbəbləri də müəyyən olunmalıdır. Əks halda, qanaxmanı tam saxlamaq mümkün olmayacaq və o təkrarlana bilər. Bir neçə saxlama üsulu var. Bildiyiniz kimi, əksər hallarda burun boşluğunun ön tamponadası olunur. Bəzi zamanlar tamponada olduqdan sonra qanaxma arxaya – udlağa doğru davam edir. O zaman ön tamponadayla bərabər arxa tamponada tətbiq edilir. Tibbi sənayenin inkişafı sayəsində son illər süngərli, elastik və havayla doldurulan balon tamponlardan da istifadə olunur.

Qanaxma çox şiddətli olmayanda və qansızma müşahidə edilən də Kisselbax kələfinin kimyəvi turşularla sürtülməsi müsbət nəticə verir. Kimyəvi trixlor, gümüş-nitrat turşularından və il-33 kimi kimyəvi maddələrdən istifadə olunur.

Burun qanaxmalarının elekrtik cihazlar vasitəsiylə dayandırılması isə iki növ cihazla icra olunur: elektrokoaqulyator (bipolyar və monopolyar) və qalvanokayzer. Bu cihazların hər ikisi qanayan sahəni yüksək temperatura gətirərək qan damarlarını yandırır və süni tromb yaradır".

V.Pənahian qeyd edib ki, qanaxma saxlanıldıqdan sonra xəstənin əsas və yanaşı xəstəlikləri dəqiqləşdirilərək medikamentoz müalicə təyin olunur. Burada qanı qatılaşdıran və damar divarlarını bərkidən dərmanlardan - aminokapron turşusu, tramsamin, disinon, kalsium qlukonat, askorutin və s.) istifadə edilir. Burun qanaxmaları davamlı təkrar olunduqda isə, cərrahi əməliyyata qərar verilir. Cərrahi əməliyyat burun çəpərinin selikli qişasının soyulması və kiçik qan damarlarının dağıdılmasından ibarətdir. Belə müdaxilədən sonra adətən qanaxmalar təkrar olunmur .

# Onkoloji Klinikada yeni idarəetmə proqramı tətbiq edilir

**Azərbaycan Tibb Universitetinin Onkoloji Klinikasının Klinik-diaqnostik laboratoriyasında, eləcə də klinikanın özündə bu ildən etibarən XMİS (Xəstəxana Məlumatlarını İdarəetmə Sistemi) proqramı tətbiq olunur.**



Laboratoriyanın müdiri Taleh Əliyevin sözlərinə görə, 2014-cü ildən LMİS (Laboratoriya Məlumatlarını İdarəetmə Sistemi) proqramından istifadə edirmişlər: "Bu proqram vasitəsilə laborator diaqnostikanın bütün mərhələləri – pre-analitik, analitik və post-analitik mərhələlər avtomatlaşdırılaraq elektronlaşdırılmışdı. Yəni xəstələr qeydiyyat bölməsində qeydiyyata düşür, ad və soyadlarla barkodlar vakuumlu qanalma sınaq şüşələrinin üzərinə yapışdırılırdı. Qəbul bölməsində nümunə qəbul edilir, çeşidlənir, sentrifuqasiyadan keçirilir və hər bölməyə uyğun olaraq qan nümunələri paylanırdı".

T.Əliyev müasir tələblərə uyğunlaşmaq, operativliyi təmin etmək məqsədilə həmin proqramın yenisi ilə əvəz olunduğunu diqqətə çatdırdı: "2024-cü ilin yanvarından etibarən Klinikamızda XMİS proqramı qurulub. Bu proqram vasitəsilə klinikaya daxil olan pasiyentlər mərkəzləşmiş qaydada, daha operativ şəkildə qeydiyyat olunur, ixtisasa uyğun həkim qəbuluna yönləndirilir. Klinisistlər müraciət etmiş pasiyentlərə lazım olan həm instrumental, həm də laborator müayinələri proqram üzərindən tələb edirlər. Ardıcıl olaraq, hər bir diaqnostik bölmə daxil olan istəklərə uyğun müayinələri aparıb sistemə daxil edir. Bununla da pasiyentə məxsus bütün məlumatlar elekton sistem üzərindən idarə olunur. Artıq klinikada bütün həkimlər proqramdan istifadə edir, sistemin üstünlüklərindən yararlanırlar".

# ATU-nun əməkdaşı beynəlxalq layihədə

**Beynəlxalq Ağız və Üz-çənə Cərrahların Assosiasiyası (IAOMS) Beynəlxalq Qadınlar Günü və Qadın Tarixi Ayı münasibətilə ağız və üz-çənə cərrahiyyəsi sahəsində qadın həkimlərin töhfələrinə həsr olunmuş layihə hazırlayıb. Layihənin əsas məqsədi tibb elminin inkişafında qadınların rolundan danışmaq və onların nailiyyətlərini beynəlxalq səviyyədə nümayiş etdirməkdir.**




Böyük marağa səbəb olan layihəyə ATU-nun Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının dosenti, dr. Nigar Sultanova da daxil edilib. Bildirilib ki, N.Sultanova ATU-da təhsil alıb, 2000-ci ildə tibb elmləri sahəsində fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işini uğurla müdafiə edib. 2003-2004-cü illərdə İstanbulda, professor Onur Erolun rəhbərliyi ilə Elmi Plastik Cərrahiyyə İnstitutunda (ONEP) plastik cərrahiyyə üzrə təcrübə keçib. 2012-ci ildə ATU-nun Ağız və üz-çənə cərrahiyyəsi kafedrasına dosent vəzifəsinə təyin olunub. 2000-2005-ci illər ərzində N.Sultanova professor Lesli Farkasın rəhbərliyi altında 26 etnik qrup/irqdən olan şəxslərin antropometrik parametrlərinin öyrənilməsi üzrə beynəlxalq layihədə iştirak edib. Üz antropometrik parametrlərinin dünyanın ən böyük müqayisəli məlumat bazası 2005-ci ildə "Journal of Craniofacial Surgery" jurnalında dərc olunub. O, sitat indeksi 900-dən çox olan 73-dən çox elmi nəşrin müəllifidir. 2000-ci ildən bir sıra üz-çənə cərrahiyyəsi (AzOMS), (IAOMS), 2007-ci ildən plastik cərrahiyyə (ISAPS), (PRAS) və 1999-cu ildən antropologiya (EAA) cəmiyyətlərinin üzvüdür.

Qeyd olunub ki, N.Sultanovanın cərrahi fəaliyyətinə anadangəlmə və qazanılmış üz deformasiyalarının aradan qaldırılmasında, kəllə-üz kompleksinin estetik və rekonstruktiv əməliyyatlarında nisbətlərin, harmoniyanın, simmetriyanın və relyefin bərpası daxildir.

# THİK nümayəndələri zorakılıq qurbanları sığınacağını ziyarət edib

**Azərbaycan Tibb Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin nümayəndə heyəti "Gender əsaslı zorakılıq qurbanları üçün Reabilitasiya və Reinteqrasiya Mərkəzi" sığınacağını ziyarət edib. Heyət üzvləri "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi nəzdində fəaliyyət göstərən bu müəssisədə yaradılmış şəraitlə tanış olub, orada yaşayan zorakılıq qurbanları ilə söhbət ediblər.**

Eyni zamanda, zorakılıq qurbanlarının fiziki və psixoloji cəhətdən cəmiyyətə yenidən inteqrasiyası, şəxsin öz ailəsinə, icmasına yenidən qayıtması üçün nəzərdə tutulmuş tədbirlərlə tanış olublar. Həmçinin zorakılıq qurbanlarının keçirdiyi fiziki, emosional və sosial vəziyyətin dəyişməsinə səbəb olan fəaliyyətlər, bu kontekstdə tibbi xidmətlərin əhəmiyyəti barədə fikir mübadiləsi aparıblar.



THİK-in sədri Qoşqar İsmayılovun rəhbərlik etdiyi nümayəndə heyətinə universitetimizin müxtəlif fakültələrini təmsil edən komitə üzvləri daxil idi.

**Qazaxıstanın paytaxtı Astana şəhərində "Radiologiyada qadın sağlamlığı" mövzusunda beynəlxalq konfrans keçirilib. Dünyanın 14 ölkəsindən radioloq-mütəxəssislərin iştirakı ilə baş tutan bu tədbirdə ölkəmizi ATU-nun Şüa diaqnostikası və terapiyası kafedrasının müdiri, professor Məlahət Sultanova və kafedranın əməkdaşı Vəfa Nəcəfova təmsil ediblər.**

# Radioloqlarımız beynəlxalq konfransda qadın sağlamlığından danışıblar

Qadınlarda daha çox rast gəlinən xəstəliklər problemi bütün dünyada aktualdır. Müxtəlif ölkələrdə qadın xəstəliklərinin statistikası regiondan və tibbi xidmətin əlçatanlıq səviyyəsindən asılı olaraq dəyişir. Son illərdə qadın sağlamlığı geniş spektrli elmi tədqiqatların aparıldığı, yeni tibbi texnologiyaların fəal şəkildə işlənib hazırlandığı və tətbiq olunduğu tibb sahəsinə çevrilib. Konfransda bu xəstəliklər fonunda müasir radiologiyada qadın sağlamlığı problemlərinə dair ümumi müzakirələr aparılıb, bu sahədəki yeniliklər təqdim olunub.

ATU-nun əməkdaşları Azərbaycanda bu sahədə əldə olunan nailiyyətlər və statistik məlumatları əks etdirən məruzə ilə çıxış ediblər.

# Ürək qan-damar xəstəlikləri haqda dərs vəsaiti işıq üzü görüb




**Azərbaycan Tibb Universitetinin II Müalicə-profilaktika fakültəsinin dekan müavini Arzu Bəydəmirovanın müəllifliyi ilə "Ürək qan-damar xəstəliklərinin farmakoterapiyası" adlı dərs vəsaiti işıq üzü görüb.**

Dərslikdə ürək qan-damar sistemi xəstəliklərinin farmakoterapiyasının ümumi məsələləri, somatik klinikada rast gəlinən kardioloji kilinik vəziyyətlərin müalicəsində işlədilən dərman maddələrinin farmakodinamikası, farmakokine-tikası, onların qarşılıqlı təsirləri, istifadəsi zamanı təsadüf edilən əlavə təsirləri, istifadəsinə göstəriş və əks-göstərişlər, dozalanmaları, farmakoterapevtik xüsusiyyətləri ətraflı şərh edilib.

Müəllif kitabda, həmçinin dərman maddələrinin təhlükəsiz istifadəsinin, effektivliliyinin qiymətləndirmə parametrlərinə və rasional farmakoterapiyanın əsas məsələlərinə də toxunub.

Dərs vəsaiti Tibb Universitetinin bütün fakültələrinin tələbələri və fənnin tədrisi ilə məşğul olan professor-müəllim heyəti, müxtəlif ixtisaslı həkim-mütəxəssislər üçün nəzərdə tutulub.

# "Ağciyər xəstəlikləri" dərsliyi nəşr olunub

**Azərbaycan Tibb Universitetinin Ağciyər xəstəlikləri kafedrasının müdiri, dosent, tibb üzrə fəlsəfə doktoru Rafiq Bayramovun müəllifliyi ilə Tibb Universitetinin tələbələri üçün "Ağciyər xəstəlikləri" dərsliyi nəşr olunub.**




Ali tibb təhsili proqramına müvafiq hazırlanmış, bronx-ağciyər patologiyalarını tam əhatə edən və doğma ana dilimizdə ilk olan bu dərslikdə tənəffüs orqanlarının anatomik-fizioloji xüsusiyyətləri, bronx-ağciyər patologiyası olan xəstələrin müayinə üsulları, tənəffüs orqanlarının infeksion-iltihabi və xronik xəstəlikləri, tənəffüs orqanlarının irsi və parazitar patologiyaları, ağciyərlərin peşə-toz xəstəlikləri, ağciyərlərin interstisial xəstəlikləri, plevra patologiyaları, ağciyər damar (qan dövranı) patologiyaları, pulmonologiyada təcili yardım halları və yuxuda tənəffüs pozulmaları haqqında müasir məlumatlar öz əksini tapıb. Dərslikdə ağciyər xəstəliklərinə aid dünyada əldə olunmuş son elmi nailiyyətlər yer alıb.

Tibb ixtisası üzrə təhsil alan ali təhsil müəssisələrinin tələbələri üçün hazırlanmış dərslikdən tələbələrlə yanaşı, müvafiq sahə üzrə ixtisaslaşan həkim-rezidentlər, gənc həkimlər və tibbin müxtəlif sahələrində çalışan, gündəlik praktikalarında bronx-ağciyər patologiyaları ilə rastlaşan həkimlər də istifadə edə bilər.

# Rezident olmaq istəyənlərin nəzərinə!

**Dövlət İmtahan Mərkəzi (DİM) 2024/2025-ci tədris ili üçün rezidenturaya qəbul elan edir. DİM-dən verilən məlumata görə, rezidenturaya qəbul imtahanlarında iştirak etmək üçün ərizə qəbulu internet vasitəsi ilə aparılır.**

Namizəd rezidenturaya qəbulun I mərhələsinin (baza fənləri üzrə biliklərin qiymətləndirilməsi) 1-ci cəhdində iştirak etmək üçün Mərkəzin internet saytının ekabinet.dim.gov.az səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra ərizə vermək üçün tələb olunan məbləği (60 AZN) "Şəxsi kabinet"indəki hesabına əlavə edir. Həsaba məbləği əlavə etmək üçün ödəniş üsulları ilə epayment.dim.gov.az internet səhifəsində tanış ola bilərsiniz.

Əsas (baza ali) tibb təhsili əsasında rezidenturaya qəbul imtahanı Mərkəz tərəfindən mərkəzləşdirilmiş qaydada iki mərhələdə keçirilir: baza fənləri üzrə biliklərin qiymətləndirilməsi; ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi. Baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanının I cəhdinin 2024-cü il mayın 5-də, II cəhdinin iyunun 23-də, ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanının isə avqustun 4-də keçirilməsi planlaşdırılır.

Namizədlərə hər mərhələdə 100 test tapşırığı təqdim olunur. Hər iki mərhələdə namizədin hər bir test tapşırığına düzgün cavabı 1 (bir) balla qiymətləndirilir. Səhv cavablar namizədin imtahan nəticəsinə (yekun nəticəyə) təsir göstərmir. İxtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanından "məqbul" alan (topladığı bal 40 və daha çox olan) namizədlər buraxılır.

Hər bir mərhələdə imtahan suallarının cavablandırılmasına 2 saat 30 dəqiqə vaxt ayrılır.

Müsabiqəyə ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında topladığı bal 50-dən az olmayan namizədlər buraxılır.

**Qeyd:**

*1.Baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanından "məqbul" alan (40 və daha çox bal toplayan) rezidentlər (rezidenturada təhsil alanlar) ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına rezidenturanı bitirdikdən və ya rezidentura təhsilindən imtina etdikdən sonra buraxılırlar;*

*2.Əsas (baza ali) tibb təhsilinin III kursunu tam bitirmiş və IV-V kurslarda təhsil alan tələbələr də baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına buraxılırlar. Baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanından "məqbul" alan tələbələr ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına yalnız rezidenturaya qəbul olunmaq hüququ əldə etdikdən, yəni əsas (baza ali) tibb təhsilini tam bitirdikdən sonra buraxılacaqlar.*

*3.Baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanından "məqbul" alan namizədlərin nəticəsi 5 (beş) il müddətində qüvvədə qalır.*

# Autizm – heç bir analizin aşkara çıxara bilmədiyi xəstəlik

## Mütəxəssis deyir ki, autik spektrin pozuntusu olan uşaqların bacı-qardaşları risk altındadır

**"Autik spektrin pozuntusu (ASP) psixi inkişafın kompleks pozulmasıdır. Sosial dezadaptasiya, sosial əlaqələrin mümkün olmaması, davranışın stereotipliyi, yeni hərəkətlərin təkrarlaması ilə xarakterizə olunur". Bunları ATU-nun Nevrologiya kafedrasının dosenti Mahirə Məmmədova uşaqlarda autizm spektrinin pozuntularında nevroloji aspektlərdən söhbət açarkən deyib.**



O bildirib ki, ilk dəfə olaraq 1911-ci ildə İsveçrə psixiatrı Eyqen Bleyler tərəfindən "autizm" termini elmi ədəbiyyata gətirilib.



"Autizm" termini "autos" yunan sözündən əmələ gəlib, "özüm" deməkdir: "Hələ keçən əsrin ortalarında autizm çox nadir xəstəlik olub. Lakin vaxt keçdikcə bu xəstəliyi olan uşaqların sayı artıb. Statistika göstərir ki son 30-40 ildə 10 min əhaliyə 4-5 nəfərdən 50-116 nəfərədək artıb. Oğlanlar qızlardan daha çox xəstələnir. Autik spektr pozuntularının səbəbi tam aydın deyil, müxtəlif hipotezlər irəli sürülür: Genetik meyillilik, sinir sisteminin inkişaf pozulmaları, xarici amillərin təsiri, hamiləlik zamanı infeksiya, kimyəvi təsir, doğuş travmaları, anadangəlmə mübadilə pozulmaları, bəzi dərman və sənaye toksinlərinin təsiri".

ASP olan uşaqlarda psixi inkişafın xüsusiyyətlərindən danışan həkim vurğulayıb ki, uşaq autizmi uşağın bütün sferalarının - intellektual, emosional hiss, hərəkət, diqqət, təfəkkür, yaddaş və nitq inkişafının pozulmasıdır: "Nitq inkişafının pozulması lap erkən yaşlarında özünü göstərir. Qığıldamanın ləngiməsi, yaxud heç olmaması, sonra uşağın böyüklərlə ünsiyyət zamanı nitqin inkişaf etməməsi və yaxud adını çağıranda reaksiya verməməsi, deyilənləri yerinə yetirməməsi.

Belə uşaqlar adətən 2 yaşında çox az söz deyir. 3 yaşında cümlə qura bilmir. Bu zaman uşaqlar çox vaxt sözləri stereotip təkrarlayır. Bəzi uşaqlarda nitq inkişaf etmir, bəzilərində isə inkişaf edir, lakin ünsiyyət pozulmaları olur. Uşaqlar əvəzlik müraciətindən istifadə etmir və özü haqqında üçüncü şəxs kimi danışır. Bəzi hallarda əvvəl əldə olunan nitqin regresiyası qeyd olunur.

Belə uşaqlar ətrafdakılarla ünsiyyət və emosional kontaktın çətin və yaxud heç olmaması səbəbindən taktil kontaktlardan çəkinir, göz kontaktı praktiki olaraq olmur, mimiki reaksiyalar qeyri-adekvat olur və jestlərin istifadəsində çətinlik çəkir. Onlar gülümsəmir, valideynlərə dartınmır, lakin böyüklər qucağına götürdükdə müqavimət göstərirlər. Yəni özlərinin və ətrafdakıların emosiyalarını təyin edə bilmirlər. Autizm olan uşaqlar başqa uşaqlarla kontakta girmir, yaxud onlardan çəkinir, digər uşaqlarla əməkdaşlıq etmir və çox vaxt təklikdə olmağa meyillidirlər".

Sözünə davam edən mütəxəssis söyləyib ki, tədqiqi davranış pozğunluğu uşaqları yeni vəziyyətə cəlb etmir və ətraf mühit, oyuncaqlar onlara maraqlı deyil: "Autizmli uşaqlar oyuncaqları qeyri-adi istifadə edir. Məsələn, maşını sürmür, onun bir təkərini saatlarla fırladırlar. Nadir hallarda yemək təkliflərində də çox seçici ola bilər. Bəzən uşaqlar yeməyi iyləməyə başlayır ki, bu da onlarda ikrah, təhlükə hissi yarada bilər. Bununla bərabər, uşaqlar yeməli olmayan əşyaları yeməyə çalışır.

Özünü qoruma davranışının pozulması: uşaq çox vaxt səbəbi müxtəlif olan təhlükəli vəziyyətə düşür, səbəbi xarici qıcığın uşaqda qeyri-kafi reaksiya törətməsidir. Məsələn, qəfildən olan səs uşağı həmin istiqamətə getməyə məcbur edə bilər və o, real təhlükənin olmasına məhəl qoymadan hündürlüyə qalxar, iti əşyalarla oynayar, baxmadan yolu keçər.

Hərəki inkişafın pozulması: uşaq yöndəmsiz yeriməyə başlayır. Bəziləri barmaqları üstə gəzir, əl və ayağın koordinasiyasının pozulması nəzərə çarpacaq dərəcədə olur. Belə uşaqlara məişət fəaliyyətini öyrətmək çətindir. Onlar təqlid etməkdə və özünəxidmət bacarıqlarını mənimsəməkdə çətinlik çəkirlər.

Onların qavrama pozğunluqlarında yüksək inpulsivlik olur. Ətraf mühitin parçalanması, obyektiv dünyanın vahid mənzərəsinin təhrif edilməsi, diqqəti cəmləşdirmə konsentrasiyasında pozulma müşahidə olunur".

Onların düşüncə xüsusiyyətlərindən də bəhs edən Mahirə xanım deyib ki, ASP olan uşaqlarda sərbəst öyrənmədə çətinliklər qeyd edilir. Autizmli uşaqlar baş verənlərdə səbəb-nəticə əlaqələrini anlamağa diqqət yetirmir. Onlar böyüklərə qulaq asmaqdan, onlarla birgə iş görməkdən imtina edir, davranışları tez-tez aqressiv partlayışlar, müqavimət, qışqırmalarla müşayiət olunur.

Autik spektr pozulmalarının diaqnostikasından da söhbət açan həkim əlavə edib ki, bu əsasən 3 kriteriyaya ayrılır: "Sosial adaptasiyanın pozulması, ünsiyyət sferasında pozulma, stereotipik davranış.

Autizm üçün bilinən bir biomarker yoxdur. Bu o deməkdir ki, heç bir qan və ya genetik analiz xəstəliyi tanıya bilməz. Bunun əvəzinə həkimlər və mütəxəssislər bir insanın autizm olub-olmadığını müəyyən etmək üçün təkrar kliniki müayinə və müşahidələrə, tibbi tarixçələr və anketlərin göstəricilərinə əsaslanmalıdırlar. Bunun üçün də psixoloji, neyropsixoloji, uşağın ailəsi və ətrafı ilə işləmək, psixososial terapiya və loqopedik korreksiya etmək lazımdır.

Müalicə məqsədilə vitaminlər, düşüncə proseslərini yaxşılaşdıran və nitq inkişafını stimullaşdıran nootrop preparatlar, eləcə də yüksək impulsivlik, aqressivlik, neqativizm, özünə qapanma əlamətləri olduqda, psixotrop dərmanlar kömək edə bilər. Bəzi hallarda autizm epileptik tutmalarla müşayiət olunur. Belə hallarda epilepsiya əleyhinə preparatlar təyin edilməlidir".

Mütəxəssisin sözlərinə görə, körpələrin ASP simptomları və əlamətlərinə görə müntəzəm yoxlanılması vacibdir. O cümlədən belə uşaqların bacı-qardaşları ASP xüsusiyyətlərini inkişaf etdirmə riski altındadır. Bu səbəbdən onlar yalnız autizmlə əlaqəli simptomlar üçün deyil, həm də nitq gecikmələri, öyrənmə çətinlikləri, sosial problemlər və yaxud depressiv simptomların aşkarlanması məqsədilə müayinədən keçməlidirlər.

Dünyadan bizimkilər

# “Tibb Universitetini məsləhət gördülər, gəldim və peşman olmadım”

## ATU-nun əcnəbi tələbələri universitetimiz və ölkəmiz haqda ağızdolusu danışırlar

**Azərbaycan Tibb Universiteti ilə bağlı əcnəbilərin son illər yüksələn marağı sevindirici haldır. Universitetimizin beynəlxalq arenada nüfuzunun artması bu ali təhsil ocağına əcnəbi tələbələrin axınına səbəb olub. Bunu həm onların ilbəil artan sayları, həm də bizimlə söhbətlərində dedikləri sübut edir.**



Rubrikamızın bu dəfəki qonaqları İordaniya Haşimilər Krallığı və Mərakeş Krallığının vətəndaşlarıdır.

Elyas Rayyan İordaniyanın paytaxtı Əmman şəhərindəndir. Həkim olmaq uşaqlıq arzusu olub. Anası milliyyətcə rusdur, İordaniya vətəndaşı ilə ailə qurub. Anasının təklifi ilə tibb təhsili almaq üçün ölkəmizə gəlib, seçimindən də olduqca razıdır: “Anam istəyirdi ki, müsəlman ölkələrinin birində ali təhsil alım. Bu səbəbdən şəxsi və internet axtarışlarından sonra Azərbaycanın üzərində dayandı. Anamın seçiminə hörmətlə yanaşdım və bura gəlməyimdən məmnunam.

Ərəb dili ilə yanaşı, rus dilini də mükəmməl bilirəm. 3 aydır Bakıdayam, Universitetin hazırlıq kursunda təhsil alıram”.

Elyas avtomobil həvəskarıdır. Buna görə də Bakıda ən çox diqqətini çəkən müxtəlif markalı avtomobillərdir: “Bakıda demək olar ki, dünyanın hər yerində istehsal olunan avtomobillər var. Sanki avtomobil kolleksiyası içərisində yaşayırsınız. Universitetimizin şəraitindən də razıyam. Gələcəkdə neyrocərrah olmaq niyyətindəyəm. Bu sahə ilə maraqlanıram. Gələn ildən Müalicə-profilaktika fakültəsində təhsil alacağam. Müəllimlərimin tədrisi də ürəyimcədir. Günel Rüstəmova, Kəmalə İmanova, Fidan Rüstəmovanın xoş rəftarını, dərsləri aydın şəkildə izah etməsini xüsusi vurğulamaq istəyirəm.

İlk dəfədir ölkədən kənarda özümü evimizdəki kimi hiss edirəm. İslam və rus mədəniyyətinə yaxınsınız. Bakıda insanlarla ünsiyyət qurmaqda çətinlik çəkmirəm. Rus dilini bilməyim bu məsələdə dadıma çatır. Ən çox gəzdiyim yer isə dənizkənarı bulvardır. Orada istirahət etmək mənə bir rahatlıq gətirir”.

Mohammed Hanif Rhali Mərakeşlidir. Orta məktəbi fransız dilində bitirsə də, ikinci xarici dil kimi ingilis dilini öyrənib. Bakıya gəlməsinə səbəb atasının dostu olub. Onun təklifi ilə Azərbaycan Tibb Universitetini seçib: “Atamın dostu Azərbaycanda işləyib. Biləndə ki xaricdə təhsil almaq istəyirəm, ölkənizi məsləhət bildi. Araşdırmalar apardım və gördüm ki, göstəricilər mənə uyğundur. Həm də buradakı təhsil sistemi başqa ölkələrdə təhsilimi davam etdirməyə icazə verir. İnsanların davranışı, bir-birlərinə münasibəti çox yaxşıdır. Doğrudur, şəhəriniz səs-küylüdür, amma bunlara rəğmən qayda-qanunlar var və ölkənizdə stabillik və təhlükəsizlik mövcuddur.



Özüm idman həvəskarı olduğum üçün Azərbaycanı ilk olaraq idman sahəsi ilə, “Formula-1” yarışları ilə tanımışam. Olimpiada yarışlarını izləyən zaman isə sizin idmançıların da cüdo, güləş və s. üzrə çıxışlarına baxırdım. Onların üzərində bayrağınızı görüncə deyirdim ki, Azərbaycandandırlar”.

Mohammed Hanif gələcəkdə həkim-onkoloq olmaq niyyətindədir. Səbəbini onunla izah edir ki, qohumları arasında xərçəng xəstəliyindən əziyyət çəkib, dünyasını dəyişənlər olub. Amma sıradan bir onkoloq olmaq yox, bu xəstəliyi hərtərəfli araşdırmaq və insanlara xeyir verməkistəyir. Arzusu xəstəliyin müalicəsini tapmaqdır. Buna inanır. Onu da bilir ki, məqsədinə çatmaq üçün yaxşı oxumalıdır. Müəllimlərindən razıdır. Onlardan Elvina Qulamovanın adını çəkir: “Tibb Universiteti də Mərakeşdəki universitetlərə bənzəyir. Amma sizdə otaqlar çox isti olur. Mərakeşdə hava həmişə günəşli, burada isə ilin müəyyən vaxtları buludlu olur. Buna da yavaş-yavaş öyrəşməyə çalışıram.

Mədəniyyətlərimiz arasında da fərqlilik var. Bu məni daha çox xoşbəxt edir. Çünki burada yeni mədəniyyət kəşf etdim. Musiqi təhsili almışam, udda ifa etməyi bacarıram. Universitetin yataqxanasında qalıram. Şəraiti normaldır. Amma internetin sürəti daha yüksək olsa yaxşı olar. Çünki bəzən qohumlarımla əlaqə qurmaqda çətinlik çəkirəm”.

Mohammed memarlıq abidələimizi, musiqilərimizi, rəqslərimizi çox bəyənir. Qarı çox sevir və xizək sürməyi bacarır. Bu səbəbdən Şahdağa getmək istəyir.

Digər həmsöhbətimiz Majd Marşan



Barhoum da iordaniyalıdır. Ailədə 2 qardaş, 3 bacıdırlar. Böyüyü Majdır. Kardioloq olmaq niyyətindədir: “Nənəmdə ürək problemi var idi. Həkimə tez-tez gedirdi. Onda mən uşaq idim, əlimdən tutub məni də özü ilə aparırdı. Bir çox həkim dəyişdi. Onların içərisində pis həkimlərə də rast gəldik. Nənəmin əziyyətlərini gördüm, həkim-kardioloq olmaq, nənəm kimi əziyyət çəkən xəstələrə kömək etmək niyyətinə düşdüm. Ona görə istəyirəm ki, yaxşı oxuyub, savadlı kardioloq olum”.

Majd deyir ki, Azərbaycana gəlməmişdən öncə Misirdə 3 il tibb təhsili alıb. Amma oradakı təhsil onu qane etməyib: “Tələbələrə, o cümlədən əcnəbilərə robot kimi yanaşırdılar. Bu münasibət istəristəməz məni sıxırdı. Azərbaycanda təhsil alan bir dostum var idi. Mənə Tibb Universitetini və ölkənizi təriflədi. Bura gəldiyimə peşman deyiləm. Fərqli və xoş münasibətlə üzləşdim. Müəllimlərimin, tələbə yoldaşlarımın, ümumiyyətlə insanların xoş və səmimi münasibətindən razıyam. Buradakı ab-hava xoşuma gəlir. Metro ən çox istifadə etdiyim nəqliyyat vasitəsidir. Metronun içərisində gəzir, Bakıda yeni yerlər kəşf edirəm. Ən çox “28 May”, “Sahil” metro stansiyalarının ətrafını, İçərişəhəri gəzmişəm. Bakı çox xoşuma gəlir. Plovunuzu bəyənirəm. Bizdə də sizin plovun bənzərini - Şah plov bişirirlər”.

Əcnəbi tələbələrimizə mənalı tələbəlik illəri və təhsillərində uğurlar arzulayırıq.

**Qabil ABDULLAYEV**

# Antibakterial terapiya kursundan sonra mikrofloranın bərpası məcburidir

**Almaniyada çalışan gənc azərbaycanlı həkimlərin ATU-nun Tədris Cərrahiyyə Klinikasının Klinik-diaqnostik laboratoriyası, Anesteziologiya və reanimatologiya şöbəsinin həkim və rezidentləri ilə görüşü olub. Toplantını açan Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov bildirib ki, görüş-seminar "Antibiotiklərin rasional istifadəsi" mövzusuna həsr edilib.**



Helios Siegburg Klinikasının daxili xəstəliklər və ağciyər xəstəlikləri, süni tənəffüs və yuxu təbabəti şöbəsinin aparıcı mütəxəssisi, Almaniyada Azərbaycanlı Həkimlər Forumun həmtəsisçisi, Köln Universitetinin Tibb Fakültəsinin doktorantı Elvin Hüseynov çıxışında antibiotikə davamlılığın qarşısının alınması yollarından danışıb və insan mikrobiomunun xəstəlik və sağlamlıqdakı roluna diqqət çəkib: “Bildiyimiz kimi, antibiotiklər bakteriyaların böyüməsinə və inkişafına təsir göstərə bilən təbii və süni şəkildə sintez edilmiş maddələrdən ibarətdir. İnsan sağlamlığını təhdid edən bəzi ciddi xəstəliklərin olması halında antibiotiklərin qəbulu zəruridir. Lakin təəssüf ki, antibiotiklərin təsiri altında yalnız patogen bakteriyalar deyil, həm də bədənin faydalı mikroflorası ölür və antibakterial terapiya kursundan sonra mikrofloranın bərpası məcburidir. Antibiotiklər ən çox pnevmoniya, vərəm, qan zəhərlənməsi, kəskin mədə-bağırsaq infeksiyaları, cinsi yolla ötürülən infeksiyalar, əməliyyatdan sonrakı ağırlaşmalar zamanı təyin edilir. Antibiotiklərin geniş tətbiqi bu dərmanlara davamlı bakteriyaların ştamlarının yaranmasına səbəb olur. Antibiotiklərin təsiri altında orqanizm müxtəlif infeksiyalara qarşı müstəqil şəkildə müqavimət göstərmək qabiliyyətini itirir”.

Daha sonra Köln Universitet Klinikası, Mikrobiologiya, İmmunologiya və Gigiyena İnstitutunun həkimi Aysel Əhmədzadə pandemiya dövründə sürətlə yayılan, flukanazola davamlı “Candida aurius” infeksiyasından bəhs edib.

Görüşdə iştirak edən ATU-nun Yoluxucu xəstəliklər kafedrasının professoru Sədrəddin Atakişizadə və II Uşaq xəstəlikləri kafedrasının assistenti Gülnarə Nəcəfova mövzuyla bağlı öz fikirlərini söyləyiblər.

Maraqlı keçən toplantıda klinikanın həkim və həkim-rezidentlərini düşündürən suallar cavablandırılıb.

Görüş ATU-nun Tədris Cərrahiyyə Klinikasının Klinik-diaqnostik laboratoriyası və Rezidentura və magistratura şöbəsinin təşkilatçılığı ilə baş tutub.

**ATU-nun Tədris Cərrahiyyə Klinikasında Urologiya kafedrası ilə Rezidentura və magistratura şöbəsi rezidentər və gənc həkimlər üçün növbəti seminar təşkil edib. Seminara moderatorluq edən şöbə müdirinin müavini, assistent Namiq Xəlilov "Sidik axarı uşaqlıq yolu fistullarının cərrahi müalicəsi” mövzusunda çıxış etməsi üçün sözü Urologiya kafedrasının professoru Əlimərdan Bağışova verib.**

# Rezidentlər üçün növbəti seminar uroloji mövzuya həsr edilib

Məruzəçi çıxışında qeyd edib ki, qadın cinsiyyət üzvlərinin travmalarına çox nadir hallarda rast gəlinir: “Xarakterinə görə küt travma nəticəsində əmələ gələn zədələr, deşilmiş, kəsilmiş, odlu silah yaraları, iti əşyalar üzərinə yıxılma nəticəsində olan travmalar, cinsiyyət üzvlərinə yad cismlərin daxil olması nəticəsində və yaxud da cinsi əlaqə, doğuş, tibbi əməliyyatlar zamanı əmələ gələn zədələri qeyd etmək olar.



Son 20 ildə tərəfimizdən 36 xəstəyə sidik axarı ilə sidiklik arasında yeni əlaqənin yaradılmasını nəzərdə tutan ayrı-ayrı üsullarla rekonstruktiv əməliyyatlar aparılıb. Xəstələrin yaşı 19-62 (orta yaş 32) arasında olub. Rekonstruktiv əməliyyatlar əksər hallarda gec (1 ay və daha artıq), əməliyyatdan sonrakı dövrdə icra edilib. Onlardan 2 nəfərdə sidik axarı-uşaqlıq, 24 xəstədə isə sidik axarı-uşaqlıq yolu fistulu olub. 19 xəstə əməliyyatdan sonrakı dövrdə formalaşmış birincili sidik axarı-uşaqlıq yolu fistulu ilə klinikamıza daxil olub. 3 xəstədə fistulu ləğv etmək üçün daha əvvəl başqa klinikalarda müxtəlif əməliyyatlar aparılıb. 2 xəstədə fistulun daralması nəticəsində böyrək parenximasının tam atrofiyası ilə əlaqədar (hidrouretereneфroz IV mərhələ) nefrektomiya icra edilib. Ümumiyyətlə, 36 xəstə üzərində 37 rekonstruktiv əməliyyat həyata keçirilib. Sidik yollarında apardığımız rekonstruv əməliyyatların effektivliyi uzaq funksional nəticələrə əsasən öyrənilib. Xəstələrin yoxlanması üçün ekskretor uroqrafiya, qalxan sistoqrafiya, böyrəklərin USM-si və həmçinin laborator müayinələrdən istifadə olunub. Uzaq funksional nəticələr 32 xəstədə yaxşı, 2 xəstədə kafi olub. Beləliklə, mamalıq-ginekoloji və abdominal cərrahiyyə praktikasında təsadüf edilən sidik axarı-uşaqlıq yolu fistullarını vaxtında və texniki cəhətdən düzgün korreksiya etməklə böyrəklərin ikincili atrofiyasının və bununla əlaqədar məcburi nefrektomiyanın qarşısını almaq mümkündür”.

Seminarda Urologiya kafedrasının müdiri, professor Rauf Nağıyev və I Mamalıq ginekologiya kafedrasının müdiri, professor Səadət Sultanova mövzuyla bağlı fikirlərini səsləndiriblər. Onlar ölkəmizdə və dünyada bu sahədə aparılan cərrahi əməliyyatların hazırkı vəziyyətindən, eləcə də yeni müalicə üsullarından bəhs ediblər.

Maraqlı keçən toplantıda klinikanın həkim-rezidentləri və tələbələr iştirak edib, iştirakçıları düşündürən suallar cavablandırılıb.

İstedadlı tələbə

# Müğənni, aparıcı, aktrisa və ən əsası, gələcək həkim

**Azərbaycan Tibb Universitetində təhsil alan istedadlı tələbələrdən biri də Selcan İsazadədir. Yaxşı aktrisalıq qabiliyyətinə malikdir. Bu qabiliyyətini ötən ilin dekabrında ATU-nun "Teatr klubu"nun təşkil etdiyi 10-cu teatr mövsümündə bacarıqla nümayiş etdirib. Belə ki, "Bankir adaxlı" tamaşasında baş rollardan biri olan "Nisə"ni uğurla oynayıb və tamaşaçıların alqışlarını qazanıb.**





Selcan İsazadə 2005-ci il dekabrın 12-də Şəki şəhərində ziyalı ailəsində anadan olub. Valideynləri orta məktəb müəllimləridir.

Özü Şəki şəhər 18 saylı tam orta məktəbi bitirib. 2023-cü ildə 648.7 balla ATU-nun II Müalicə-profilaktika fakültəsinə daxil olub. Hazırda 1-ci kursda oxuyur. Deyir ki, uşaqlıqdan həkim olmaq istəyirmiş: "Təhsilə marağımın yaranmasında valideynlərimin böyük rolu olub. Orta məktəbdə dərslərmi yaxşı oxuyur, əlaçı şagirdlərdən biri idim. 9-10-cu siniflərdə biologiyadan fənn olimpiadasında iştirak etmiş, respublika üzrə 2-ci yeri tutaraq gümüş medal qazanmışam. Bununla yanaşı, həm məktəbdə, həm də Şəki şəhər və respublika üzrə keçirilən çoxsaylı tədbirlərdə fəallıq göstərmişəm. Tədbirlərdə mahnı oxumuş, şeir demiş, aparıcılıq etmişəm.

Ulu Öndər Heydər Əliyevin 99-cu ildönümünə həsr olunmuş "Ən yaxşı təqdimat" müsabiqəsində natiqlik bacarığımı sərgiləyərək, 3-cü yerə layiq görülmüşəm. 2022-ci ildə isə "Çıxdı Günəş, doldu cahan nur ilə" respublika şeir müsabiqəsində 2-ci yeri tutmuşam".

Orta məktəbi qızıl medal və fərqlənmə attestatı ilə bitirən Selcan, müəllimlərinin sevimlisi olub. Sevinir ki, 11 il çəkdiyi əziyyət hədər getməyib, bu gün Tibb Universitetinin tələbəsidir: "Tələbə olmağın məsuliyyəti isə tamam başqadır. Bilirəm ki, savadlı həkim olmaq üçün yaxşı oxumalı, üzərimdə çox çalışmalıyam. Ona görə də əlimdən gələni edirəm".

Orta məktəbdə olduğu kimi, ATU-da da müəllimlərinin sevimlisinə çevrilən S.İsazadə burda da dərslərini yaxşı oxuyur. Eyni zamanda, universitet həyatı ona başqa qabiliyyətlərini üzə çıxarması baxımından daha geniş imkanlar yaradıb. Bu dəfə Selcan özünü aktyorluq sahəsində yoxlayıb: "Universitetə daxil olandan sonra özümü fərqli bir sahədə sınamaq istədim. Aktyorluq bacarığımı universitetimizin "Teatr klubu"nda kəşf etdim. İlk dəfədən mənə məsuliyyətli, özü də baş rol tapşırıldı. Bu məsuliyyətin ağırlığını yaxşı dərk etdiyim üçün üzərimdə ciddi çalışmalı oldum. "Bankir adaxlı" tamaşasında Nisə rolunu oynadım. Doğrudur, Nisə fırıldaqçı bir satıcı olsa da, onun həyatda qalıb yaşaması, uşaqlarını böyütməsi mənə bu rolu sevdirdi. Həyatımda bu tamaşa xüsusi əhəmiyyət kəsb edir, xatirəmdə silinməz iz buraxdı. "Teatr klubu"nun səmimi, mehriban kollektivini çox sevdim. Hesab edirəm ki, oynadığım rol və tamaşa uğurlu oldu. İnanıram ki, gələcəkdə də mənə maraqlı rollar tapşırılacaq, onların öhdəsindən layiqincə gələcəyəm".



Selcan bu günlərdə ATU-nun Tələbə Elmi Cəmiyyətinin İdarə Heyətinə qoşulduğunu da diqqətimizə çatdırdı. Bildirdi ki, sınadığı bütün sahələrdə həmişə uğur qazanıb. İnanırıq ki, TEC-də də fəaliyyəti uğurlu alınacaq, aparacağı elmi araşdırmalar seçilənlərdən olacaq.

# Yaşıllıqların artırılması niyə vacibdir?

## Atmosferin çirklənməsi ekoloji böhrana səbəb olur

**Atmosferin çirklənməsi və onun fəsadları bütün bəşəriyyəti dərindən narahat edən problemlərdəndir. Hazırda atmosferi çirkləndirən əsas mənbələr təbii və antropogen olaraq qruplaşdırılır. Təbii çirklənmə adətən vulkan püskürməsi, zəlzələlər, torpaq sürüşməsi və s. səbəblərdən, antropogen çirklənmə isə müxtəlif sənaye müəssisələrindən, avtomobil nəqliyyatından havaya atılan zərərli qazlar hesabına baş verir. Avtonəqliyyat vasitələrinin havanı çirkləndirən əsas tullantılarına dəm qazı, karbohidrogenlər, azot oksidləri aiddir.**



Mütəxəssislər hesab edirlər ki, hava çirkləndiricilərinin ən təhlükəlisi və xoşagəlməyəni - qaz, tüstü, duman və toz qarışığından ibarət olan smoqdur. Su buxarlarının kondensasiya zamanı kiçik tüstü hissəcikləri ətrafında toplanmasından əmələ gələn smoq, xüsusilə iri sənaye şəhərlərində nəqliyyat vasitələrinin çox sıx olduğu ərazilər üçün xarakterikdir. Smoqun tərkibində olan ən zəhərli qaz avtomobillərin buraxdığı dəm qazı hesab olunur. Smoq zamanı havada zərərli maddələrin şiddətli konsentrasiyası yaranır ki, bu da bəzən insanların səhhətində ağır vəziyyətlə nəticələnir. Smoqun bütün növləri tənəffüs sisteminə qıcıqlandırıcı təsir etməklə yanaşı, görmə funksiyasının da pozulmasına səbəb olur.



Atmosfer havasının vəziyyəti həm ətraf mühitə atılan tullantılardan, həm də meteoroloji şəraitdən asılıdır. Belə ki, durğun, isti hava şəraitində çirkləndirici maddələrin toplanmasına əlverişli şərait yaranır.

Havanın çirklənməsinə təsir edən bir çox amillər mövcuddur. Yaşıllıqların azalması, avtomobillərin sayının artması, aparılan tikinti işləri, eyni zamanda, zərərli tullantılar ixrac edən müəssisələr əsas mənbələr hesab oluna bilər. Yaşıllıqların azalması bir çox iqlim patologiyalarına - yağıntı miqdarının azalmasına, küləklərin artmasına, torpağın eroziyasına səbəb olur. Yeni atmosfer çirklənmələri bütövlükdə iqlimin dəyişməsinə gətirib çıxarır. Havanın çirklənməsi Günəş şüalarının axın sürətinə, onun Yer səthində əks olunmasına, atmosferdə gedən bütün təbii proseslərin dinamikasına və nəhayət, atmosfer çöküntülərinin tərkibinə ciddi təsir edərək biosferdə həyat proseslərinin normal inkişafına əngəl olur. Bu cür problemlərin qarşısını almaq və ətraf mühiti qorumaq üçün mütləq yaşıllıqların sayı artırılmalı, havanı çirkləndirənlərə qarşı cəzalar sərtləşdirilməlidir.

**Vüsalə KAZIMOVA,**
*Qidalanma və tibbi ekologiya kafedrasının assistenti*

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

**Kafedranın müdiri:**
- Tibbi mikrobiologiya və immunologiya kafedrası

**Kafedraların professorları:**
- Tibbi mikrobiologiya və immunologiya kafedrası - 1 yer (0,5 vahid)
- I Mamalıq və ginekologiya kafedrası - 1 yer

**Kafedraların dosentləri:**
- Bioloji kimya kafedrası - 1 yer
- Əczaçılıq toksikologiyası və kimya kafedrası - 1 yer
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası - 1 yer
- III Cərrahi xəstəliklər kafedrası - 1 yer
- Tibbi-biologiya və genetika kafedrası - 1 yer ( 0,75 vahid)
- Onkologiya kafedrası - 1 yer ( 0,5 vahid)

**Kafedraların assistentləri:**
- Terapevtik stomatologiya kafedrası - 1 yer
- I Daxili xəstəliklər kafedrası - 1 yer ( 0,5 vahid)
- III Daxili xəstəliklər kafedrası - 1 yer ( 0,5 vahid)
- Ortopedik stomatologiya kafedrası - 1 yer ( 0,5 vahid)
- Ortopedik stomatologiya kafedrası - 1 yer
- Ümumi cərrahlıq kafedrası - 1 yer (0,5 vahid)
- I Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası - 1 yer (0,5 vahid)
- Ailə təbabəti kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların baş müəllimləri:**
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası - 1 yer
- Bioloji kimya kafedrası - 1 yer
- Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası - 1 yer (0,75 vahid)
- Azərbaycan dili kafedrası - 1 yer (0,5 vahid)

**Kafedranın müəllimi:**
- İctimai fənlər kafedrası - 1 yer

**Elmi Araşdırmalar Mərkəzi:**
- Hüceyrə kulturası laboratoriyası (laboratoriya müdiri) - 1 yer

**Elmi Araşdırmalar Mərkəzi:**
- Morfologiya və histologiya şöbəsi (baş elmi işçi) - 1 yer

**Elmi Araşdırmalar Mərkəzi:**
- Farmakologiya və toksikologiya şöbəsi (böyük elmi işçi) - 1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**
**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14**
**Telefon: 597-10-08**

### Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi (yeni formatda).
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifəyə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski (əgər bal-reytinq cədvəli üzrə qiymətləndirilmə zamanı təqdim edilməyibsə).
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomu və elmi ad attestatının surəti.
10. "Pedaqoji peşəkarlığın inkişafı" mövzusunda təlimlərdə iştirakı barədə sertifikatın surəti.

**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.**

### Allah rəhmət eləsin!

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının professoru, Prezidentin fərdi təqaüdçüsü, Əməkdar elm xadimi, REA-nın akademiki Vaqif Şadlinski Epidemiologiya və biostatistika kafedrasının müdiri, professor İbadulla müəllimə qardaşı

**Həmdulla Ağayevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

Ü N V A N I M I Z:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0007
Sayı 800